Tarix və onun problemləri, №3 2010

**ŞAMİL RƏHMANZADƏ**
*AMEA A.Bakıxanov adına Tarix İnstitutu,*
*"Qafqaz Tarixi" şöbəsi*
shamil-rahman@mail.ru

# ZAQATALA DAİRƏSİ 1917-1918-Cİ İLLƏRDƏ: İCTİMAİ SEÇİM SİTUASİYASINDA ETNOSİYASİ İDENTİKLİK AXTARIŞLARI

**Açar sözlər:** Zaqatala dairəsi, etnosiyasi proseslər, sosial böhran, siyasi transformasiya, milli identikliyin təsbiti.

**Ключевые слова:** Закатальский округ, этнополитические процессы, социальный кризис, политическая трансформация, становление национальной идентичности.

**Key words:** Zaqatala district, ethnopolitical processes, social crisis, political transformation, formation of national identity.

Bəlli olduğu kimi, 1860-cı ilin aprelində Car-Balakən hərbi dairəsinin əsasında təsis edilmiş Zaqatala dairəsinin tərkibinə Car-Balakən camaatlıqları və qismən İlisu sultanlığının əraziləri daxil idi, yəni dairə təqribən indiki Balakən, Zaqatala və Qax rayonlarının ərazilərini əhatə edirdi. Sahəsi təqribən 3736 km$^2$ olan bu bölgə, əhalisinin polietnik tərkibi ilə fərqlənirdi: 1917-ci il ərəfəsində dairədə təqribən 93,6 min əhali yaşayırdı ki, onlardan 49056 (54%) nəfərini avarlar və saxurlar, 26230 (28,3 %) nəfərini Azərbaycan türkləri, 9850 (9,6 %) nəfərini müsəlman ingiloylar, 4664-ni (5%) xristian ingloylar, 2530 (2,7 %) nəfərini ermənilər, 368 (0,4 %) nəfərini ruslar təşkil edirdi [**1**, 44; **2**, 178-221]. Gətirilən bilgilər bölgənin konfessional mənzərəsini yetərincə aydın cızır: əhalinin mütləq əksəriyyəti – 92 % müsəlman idi. Yeri gəlmişkən, məhz bu - konfessional amil 1918-ci ildə Azərbaycan cümhuriyyətinin siyasi identikliyinin formalaşması və təsbitində olduqca mühüm rol oynamışdı: fikrimizcə, birinci respublikanın qurucuları öz dövlətlərinə Qafqazın (xüsusən də onun cənub və mərkəzi qisimlərinin) türk-müsəlman aləminin inteqrasiyasını gerçəkləşdirəcək özünəməxsus siyasi layihə kimi baxırdılar.

Zaqatalada «hərbi-xalq idarəçiliyi» adlanan idarəetmə sistemi tətbiq edilmişdi. Belə bir sistem üçün bütün mülki hakimiyyətin hərbi məmurların əlində cəmləşməsi səciyyəvi idi; digər tərəfdən o, kənd icmalarının idarəçiliyini, habelə qəza idarəsinin aşağı vəzifələrini nüfuzlu yerli sakinlərə həvalə etməklə müəyyən elastiklik nümayəş etdirmiş olurdu [**3**, 851].

Zaqatala dairəsində qeyd olunan idarəçilik sistemi müəyyən dəyişikliklərlə 1917-ci ilə qədər saxlanılmışdı.

1917-ci ilin fevral inqilabı bütün Rusiyada olduğu kimi, Cənubi Qafqazda siyasi, hüquqi və inzibati reallıqların yenidən tərtiblənməsi anlamına gəlmişdi: yeni inqilabi hökumət ilk növbədə hakimiyyət təşkili və strukturlarının əvvəlki formalarının fəal surətdə demontajına girişmişdi.

Ölkədə və regionda baş verən hadisələr Zaqatala dairəsi üçün də təsirsiz ötüşə bilməzdi: artıq inqilabın ilk günlərində Zaqatala şəhərində icraiyyə komitəsi yaradılmış, tezliklə isə kənd, nahiyə və dairə icraiyyə komitələri təşkil edilmişdi.

1917-ci ildə dairə dörd nahiyəyə (məntəqəyə): Car-Muxax, Balakən, Əliabad və Qax, və iki rayona (Muxax və Almalı) bölünürdü. İyul-avqust aylarında həmin nahiyə və rayonların bütün cəmiyyətlərində (cəmi 31 kənddə) icraiyyə komitələrinə seçkilər keçirildi. Dairədə seçki vasitəsi ilə həmçinin dörd nahiyə icraiyyə komitəsi təşkil olunmuşdu [**4**, 1-5].

1917-ci ilin sentyabrın 11-də Zaqatala şəhər icraiyyə komitəsinə seçkilər baş tutdu. Komitəyə 8 üzv seçilmişdi; ora həmçinin Fəhlə və əsgər nümayəndələri şurasından 4 nəfər kooptasiya olunmuşdu. Lakin bu 12 üzvdən yalnız ikisi – Qardaşov və Qazıyev mahalın müsəlman əhalisini təmsil edirdi [**5**, 10].

1917-ci ilin may ayının 25-də bölgənin fəal siyasi və ictimai xadimlərindən olan İslam bəy Qəbulov Azərbaycan müsəlman milli şurasının xüsusi tövsiyəsi ilə Xüsusi Zaqafqaziya Komitəsi

(XZK) tərəfindən dairə müvəkkili vəzifəsinə təyin olundu [3, 1]. Aslan bəy Qardaşovun rəhbərlik etdiyi Dairə İcraiyyə Komitəsinin 20 mart 1917-ci il tarixli qərarı ilə yerli vergi müfəttişi İsmayıl bəy Şahmalıyev dairənin komissarı vəzifəsinə təyin olunmuşdu. Martın 30-da bu qərar XZK tərəfindən təsdiq edilmişdi [**6**, 1-2].

Xüsusi Zaqafqaziya Komitəsi dairənin ali hakimiyyətini formalaşdırarkən «mahalda milli əmin-amanlığı qoruyub saxlamaq» bəhanəsi ilə Qəbulovla bərabər Georqadze adlı şəxsi ikinci müvəkkil təyin etmişdi [**5**, 3]. İyunun 14-də onu Sirbiladze adlı bir başqa gürcü məmuru (o, Sığnaq qəzasında hakimiyyət orqanlarında çalışmışdı və dairənin yerli sakini deyildi) əvəz etdi.

Qeyd etməliyik ki, Xüsusi Zaqafqaziya Komitəsinin Zaqatalaya münasibətdə yürütdüyü kadr siyasəti bölgədəki mövcud etnodemoqrafik situasiyaya kifayət qədər qeyri-adekvat idi: mahal əhalisinin sadəcə 5%-ni təşkil edən xristian ingiloylar öz saylarına qeyri-proporsional surətdə bölgənin hakimiyyət orqanlarında təmsil olunmuşdular. Məsələn, adı çəkilən Sirbiladzedən əlavə, müvəkkil köməkçisi vəzifəsində L.Xutsiyev çalışırdı. Zaqatala şəhər icraiyyə komitəsinə Mosiyev və Aniyev adlı nümayəndələr daxil idilər. 1917-ci ilin yayında Zaqatalada müsəlman-xristian ixtilafının qarşısını almaq üçün bölgəyə ezam olunmuş komissiyanın 3 üzvündən ikisi gürcü idi [**7**, 1, 6].

Fevral inqilabından sonra Zaqatala dairəsinin Tiflis quberniyasına birləşdirməyə can atan gürcü siyasi qüvvələri fəallaşmışdı. 1917-ci ilin mayında dairə komissarı İ.Şahmalıyev, ərzaq komitəsinin sədri A.Qardaşov, icraiyyə komitəsi üzvləri (B.Qalacov, H.Xəlilov, N.Qazıyev, Müslüm Əfəndi Gerov oğlu) XZK-ya «Məruzə» təqdim etdilər [**8**, 1-7]. «Məruzədə» dairədə təşəkkül tapmış postinqilab gerçəkliyinin təsviri ilə yanaşı, «birləşdirmə» məsələsinə də münasibət ifadə olunurdu. Bu sənəd Zaqatala ictimai-siyasi, mədəni və ruhani fəallarının etnosiyasi təmərküzləşməsi prosesinin növbəti şahidliyi səciyyəsində narrativ nümunəsidir. Onun müəllifləri mühakimə aktında hadisələrin arzuolunmaz istiqamətini – tarixi, məişət, psixoloji mülahizələrə istinadən Tiflis quberniyasına birləşmək perspektivini qəti şəkildə rədd edirdilər [**8**, 7-7 (arxa)].

Sözügedən «Məruzə» məğz etibarı ilə «apofatik» kimi işarələyə biləcəyimiz narrasiyalar kateqoriyasına aid edilə bilər; o etnokonfessional uyumsuzluq mülahizələrinə görə və daha çox neqativ səciyyəli tarixi təcrübəyə istinadən Tiflis quberniyasına birləşmək ehtimalını rədd etsə də, əvəzində alternativ istiqaməti ehtiva etmirdi. Yəni başqa sözlə, bu sənəd bölgə müsəlman ictimai-ruhani elitasının gələcək gürcü muxtariyyətinin tərkibinə qatılmağın qeyri-məqbulluğu haqqında rəyini ifadə edirdi, fəqət mahalın başqa hansı siyasi-inzibati quruma (daha geniş kontekstdə isə həmçinin konstruksiya olunacaq hansı milli ümumiliyə) inteqrasiya niyyətini də aşkara çıxarmırdı. Bu, ondan irəli gəlirdi ki, əvvəla, imperiyanın dağılma mərhələsinə qədəm basdığı 1917-ci ildə Cənubi Qafqazda və əlalxüsusda Azərbaycanda milli mövcudluğun siyasi inkişaf vektoru kifayət qədər qeyri-müəyyən halda idi. İkincisi, dairənin polietnik əhalisi (və onun ziyalı zümrəsi) mühitində etnosiyasi identikliyin təsbiti prosesi hələki latent cərəyan edərək, məzmun konkretliyi kəsb etməmişdi.

1917-ci ildə mahalın müsəlman siyasi-intellektual elitasının daxilində təfriqə nəzərə çarpırdı. Məsələ onda idi ki, Qəbulov vəzifəyə təyin olunduğu gündən mahalda müxtəlif növ qanunsuzluqlara, xüsusən də ərzaq işlərində mövcud sui-istifadə hallarına qarşı fəal surətdə mübarizəyə başlamışdı. Həmin vaxtlar dairə ərzaq komitəsinin başında isə bölgənin nüfuzlu ictimai xadimlərindən olan Aslan bəy Qardaşov dururdu. Bu şəxsin nüfuzundan belə bir fakt xəbər verirdi ki, komissar İ.Şahmalıyev məhz «Qardaşov partiyasının» kadrı hesab olunurdu. Qəbulovun ərzaq məsələlərinə müdaxilə etməsi onu bu qruplaşma ilə üz-üzə qoymuşdu [**7**, 17-18].

Əgər Qəbulov əks tərəfi ərzaq bölgüsündə sui-istifadəyə yol verməkdə suçlayırdısa, Qardaşov onu öz vəzifə səlahiyyətlərindən kənara çıxmaqda və hakimiyyət hərisliyində ittiham edirdi.

Bu ixtilafdan bölgəni Tiflis quberniyasına (gələcəkdə isə planlaşdırılan gürcü muxtariyyətinə) birləşdirmək məqsədi güdən qüvvələr yararlanmağa çalışırdılar. Onlar Qardaşovun vasitəsi ilə İ.Qəbulovu tutduğu vəzifədən kənarlaşdırmağa müvəffəq oldular: Xüsusi Zaqafqaziya Komitəsinin sədri Xarlamov 1917-ci ilin avqustun 27-də İ.Qəbulovun vəzifədən azad edilməsi və mahalda sadəcə bir müvəkkilin – Sirbiladzenin saxlanılması barədə qərar dərc etdi; özü də bu qərar məhz Qardaşovun

çoxsaylı teleqramlarından sonra verilmişdi [**7**, 9, 61, 62]. Yeri gəlmişkən, Qəbulovun fəaliyyətindən Zaqatala dairəsi Fəhlə və əsgər deputatları soveti də razı deyildi: bu qurum Qəbulovu millətçilikdə qınayırdı [**7**, 29-30].

Qəbulovun vəzifədən uzaqlaşdırılmasından sonra yuxarıda qeyd etdiyimiz qüvvələr fəallaşdılar. Tezliklə, Şahmalıyevin istefasından sonra boş qalmış dairə komissarı vəzifəsinə (həmin vəzifəni müvəqqəti olaraq Aslan bəyin qardaşı Həbibulla bəy Qardaşov icra edirdi) kimin seçiləcəyi məsələsi aktuallaşdığı zaman bu qüvvələr bölgəyə dair müəyyən niyyətlərini gerçəkləşdirməyə cəhd etdilər. Seçki məsələsi ilə əlaqədar dairə müvəkkili Sirbiladze Xüsusi Zaqafqaziya Komitəsinə təliqə göndərmişdi [**7**, 80-80 (arxa)]. Təliqədə komissarın yerli müsəlmanlardan təyin edilməsi «yerli əhali tərəfindən demokratik əsasların mənimsənilməməsi üzündən» arzuolunmaz sayılırdı. Öz mövqeyini əsaslandırmaq üçün Sirbiladze bəzi faktlara müraciət edirdi: «Sabiq komissar İsmayıl bəy Şahmalıyev bir yerli kimi vəzifədə qala bilmədi və həm dairə komitəsinin qərarı ilə, həm də iri camaatların tələbi ilə kənarlaşdırıldı…

Bundan əlavə, hakimiyyətin təşkili üzrə keçmiş müvəkkil İ.Qəbulov da yerli kimi, əhalinin nəzərində mütləq nüfuza malik deyildi. Halbuki mən bir qeyri-yerli kimi… dairənin istisnasız bütün milliyyətlərinin ümumi rəğbətini qazanmışdım…». Gətirilən sitatdan belə qənaətə gəlmək olar ki, sözügedən dövrdə müsəlman əhalisi arasında siyasi təmərküzləşmə prosesi olduqca çətin gedirdi: bu, siyasi şüurun aşağı səviyyədə olmasından irəli gəlirdi. Yalnız 1917-ci ilin sonlarına doğru bölgənin de-fakto əlahiddələşməsi bu prosesə müəyyən mənada təkan vermişdi.

Sirbiladze komissar vəzifəsinə M.D.Çavçavadze adlı gürcü xadiminin namizədliyini irəli sürərək, həmin şəxsin bu yerlərin sakini olmamasını və deməli, heç bir qruplaşmaya daxil olmadığını əsas gətirirdi; bu amil, təliqə müəllifinin fikrincə, qeyd olunan namizədin bütün millətlərə eyni münasibət bəsləyəcəyini əvvəlcədən müəyyənləşdirirdi. Sirbiladzenin məsələdə heç də qərəzsiz mövqe tutmaması elə bu məqamdan aydın olurdu: komissar vəzifəsinə mahal üçün kənar şəxsin təyin edilməsi zəruri idisə, bu şəxsin qeyri-müsəlman və hətta gürcü olması da şərt deyildi.

Sirbiladzenin təklifi Qafqazın ali hakimiyyət instansiyası tərəfindən bəyənilmişdi. Zaqatala dairə icraiyyə komitəsinin oktyabrın 14-də olmuş iclasında XZK nəzdində hakimiyyət orqanlarının təşkili üzrə idarənin müdiri Mendelevin teleqramı oxundu: orada Çavçavadzenin namizədliyi rəsmən təklif olunurdu. Lakin icraiyyə komitəsi bu namizədliyi hətta səs verməyə çıxarmayaraq, dərhal rədd etmişdi. İclasda komissar vəzifəsinə mahalın ruhani liderlərindən olan, Balakən kənd imamı Molla Məhəmməd (Muhuma) Dibirov seçilmişdi [**7**, 82-82 ( arxa)].

1917-ci ilin sonlarına doğru bütün ölkəni bürümüş siyasi böhran Zaqatala mahalının ictimai-siyasi həyatına təsir göstərməyə bilməzdi. Bu, ilk növbədə bölgədə quldurluq hallarının artmasında, habelə dairənin regional siyasi-inzibati mərkəzlə – Tiflislə, orada qərarlaşmış Cənubi Qafqazın ali hakimiyyət orqanları ilə əlaqələrinin zəifləməsində təzahür edirdi. Aşağıda görəcəyimiz kimi, Cənubi Qafqaz seyminin mövcudluğu dövründə Zaqatala dairəsi avtonom surətdə fəaliyyət göstərirdi. Faktiki olaraq dairə iqtidarsızlıq (formal hakimiyyətin olduğu şəraitdə) mərhələsinə qədəm basmışdı. 1917-ci ilin dekabrın 4-də Zaqatala Sovetinin (o hərbi hissələrin bölgəni tərk etməsi ilə tezliklə işinə xitam vermişdi) sədri İ.A.İvanov Transqafqaz hökumətində daxili işlər komissarı vəzifəsini tutan Çxenkeliyə ünvanladığı məruzəsində yaranmış vəziyyəti belə səciyyələndirirdi: «Son zamanların hadisələri və xüsusən də bolşevik qiyamı Zaqatala dairəsinin həyatına ağlasığmaz xaos və anarxiya gətirmişdir… Vəhşicəsinə qətllər, qarətlər, qəsbkarlıqlar, qanlıların dəhşətli əməlləri, sonsuz oğurluqlar – bütün bunlar öz apogeyinə çatmışdır və dairənin durumunu fəlakətli saymalıyıq» [**9**, 1].

Gətirilən sitatdan da bəlli olur ki, dairə, bütün imperiya məkanı kimi, siyasi böhranla yanaşı sosial böhrana da qərq olmuşdu. Sosioloji definisiyaya əsasən, «sosial böhran, bir qayda olaraq, cəmiyyətin «ideoloji bütövlüyünün» pozulması, əvvəlki dəyərlər sisteminin laxlaması ilə səciyyələnir» [**10**, 49]. Bu zaman ayrı-ayrı fərdlər «psixososial moratorium» durumuna düşürlər. Yəni hamı tərəfindən qəbul edilmiş norma-dəyərlər sistemini qeyri-məqbul sayaraq, fərqli davranış tərzi sərgiləyirlər. Yuxarıda sadalanan qətl və qarət hallarının çoxalması da məhz sosial böhranın acı təzahürlərindən idi.

İvanovun məlumatında daha sonra deyilirdi ki, əhali arasında hakimiyyətin tərtibi ilə bağlı ciddi fikir ayrılıqları mövcud idi; bir qrup «dairədə iqtidarın müsəlman əhalisi arasında böyük etimada və nüfuza malik mollalara məxsus olması» istəyində idi. Əhalinin digər qismi bununla kifayətlənməyərək, dairənin Cənub-Şərq İttifaqına qatılmasını və Dağıstandan qoşun göndərilməsini tələb etməyi məqsədəuyğun hesab edirdi. Üçüncü qrup isə («o milli komitədə çoxluq təşkil edirdi») Transqafqaz komissarlığının göndərəcəyi komissarı tanımağa razı idi. Haşiyə çıxararaq, qeyd edək ki, Cənub-Şərq İttifaqı (CŞİ) 1917-ci ilin oktyabrında bir təşkilat kimi Vladiqafqazda yaradılmışdı. CŞİ noyabrın 16-da Yekaterinodarda (indiki Krasnodarda) Şimali Qafqazın bolşevikləşməsinə imkan verməmək məqsədilə hökumət təşkil etmişdi. Sədri A.Kaledin olan bu İttifaqa müxtəlif kazak qoşunları atamanları və Şimali Qafqazın nüfuzlu torpaq və sərmayə sahibləri daxil idi. Bu İttifaqın ömrü uzun olmamış, 1918-ci ilin yanvar-mart aylarında Şimali Qafqazda sovet hakimiyyətinin qurulması ilə mövcudluğuna son vermişdi [**11**].

İqtibas verilən məruzədən görünür ki, əvvəla, Zaqatala dairəsi, Dağıstanda bolşevik hərəkatının fəal iştirakçısı A.Taxo-Qodinin iddia etdiyi kimi [**12**, 167], heç də CŞİ-nin tərkibinə daxil deyildi. İkincisi, məruzənin müəllifi İvanovun da etiraf etdiyi kimi, müsəlman ictimaiyyətinin əksəriyyəti Cənubi Qafqaz hökumətinin hakimiyyətini tanımağa hazır idi. Bəlli olduğu kimi, bu hökumətin formalaşmasında Azərbaycan milli hərəkatının əsas siyasi qüvvələri, o cümlədən müsavatçılar fəal iştirak etmişdilər. Ona görə də, zənnimizcə, «Cənubi Qafqaz hökumətinin hakimiyyətinin tanınması» onun tərkibinə daxil Azərbaycan milli hərəkatını tanımaq anlamını da verə bilərdi.

1917-ci ilin sonu – 1918-ci ilin ilk yarısını – bu qeyri-müəyyənlik dövrünü «aralıq zaman» (rusca «межвременье») kimi də müəyyənləşdirə bilərik. Məşhur postmodernist mütəfəkkirlər – Delez və Qvattari «Fəlsəfə nədir» əsərində aralıq zamana təşəkkül tapmaqda olan zaman kimi tərif verirlər [**13**]. Yəni «aralıq zamanda» Zaqatala mahalı öz tarixinin keyfiyyətcə bir mərhələsindən (imperiya tərkibində bulunma) digərinə (postimperiya və ya millət-dövlət) keçid prosesini yaşamaqda idi. Bu prosesin ən mühüm özəlliklərindən biri – əhalinin siyasi özşüurunda, özünüdərkində yeni siyasi situasiyanın təsiri altında tədricən baş verməkdə olan dəyişiklər idi. Mahalın polietnik (fəqət konfessional cəhətdən daha yekcins) əhalisi imperiya çöküşündən sonra özünün yeni identikliyini qurmaq zərurəti ilə üzləşmişdi. Özü də bu, yəni «millətqurma» vəzifəsi lokal xarakter daşımayaraq, 1917-1918-ci illərin keşməkeşli dönəmində bütün Azərbaycan siyasi camiəsi (bir daha vurğulayırıq: bütün, ideya-siyasi mənsubiyyətindən asılı olmayaraq) qarşısında duran həyati vacib məsələ statusu kəsb etmişdi. Burada belə bir məqam da unudulmamalıdır ki, Zaqatala dairəsində sözügedən vəzifənin həlli burada əhalinin polietnikliyi səbəbilə milli və ya etnosiyasi identikliyin müxtəlif layihələrinin rəqabəti ilə müşayət olunurdu; yuxarıda İvanovun məruzəsində hakimiyyətin təşkili ilə bağlı bölgədə müxtəlif düşərgələrin mövcudluğu haqqında informasiyası da məhz bu rəqabətin əks-sədası idi.

Zaqafqaziya komissarlığının xüsusi tapşırıqlar üzrə məmuru olan, yuxarıda adını çəkdiyimiz M.D.Çavçavadze bölgəyə səfərindən sonra yazırdı ki, 1917-ci ilin dekabrın 17-də dairə sakinlərinin ümumi qurultayı çağırılmışdı. O ərəfədə Cənubi Qafqazın ali hakimiyyəti dairə komissarı vəzifəsinə Haqverdiyev adlı birisinin namizədliyini irəli sürsə də, qurultay üç nəfərdən ibarət («Müsavat» partiyasının üzvü İslam bəy Qəbulov, Molla Məhəmməd Dibirov və Car sakini Molla Müslüm Əfəndi Rəcəbov) komissarlıq seçmişdi [**14**, 3]. Bu seçim, fəqət, Zaqafqaziya komissarlığının sanksiyasını almamışdı, beləki Dibirov və Rəcəbovun dairədə anarxiya törədən və qüsurlu keçmişə malik insanlarla əməkdaşlıq etməsi güman olunurdu. Yeri gəlmişkən, qeyd edək ki, Rəcəbovla Qardaşovlar arasında şəxsi zəmində ədavət mövcud idi: Müslüm Əfəndinin qardaşı oğlu Aslan bəyin qardaşı Həbibulla bəyi (keçmiş dairə komissarı) və iki oğlunu qətlə yetirməkdə ittiham olunurdu [**14**, 7].

İslam bəyin 1918-ci ilin martın 7-də dairə komissarlığı tərkibindən getməsindən sonra mahalın bir müddət ümumiyyətlə hakimiyyətsiz qalması hərcmərcliyin, qətl və qarətlərin artmasına gətirib çıxarmışdı [**15**, 3].

Bu arada anarxiyaya son qoymaq və Cənubi Qafqaz hökumətinin hakimiyyətini bərqərar etmək məqsədilə 1918-ci ilin fevralın 10-da bölgəyə ezam olunmuş Çavçavadze vəziyyəti nəzarət altına götürə bilməmişdi. İslam bəy Qəbulovun Zaqafqaziya komissarlığına məruzəsində (8 aprel 1918-ci il)

M.D.Çavçavadzenin ezamiyyətinin müvəffəqiyyətsizliyi aşağıdakı şəkildə izah edilirdi: «Əhalinin psixologiyasını bilməyən… Çavçavadze dairəyə gəzintidə olduğu zaman camaata dürüst və əlbir iş aşılamaq əvəzinə… hər yerdə ucadan deyirdi: "indi azadlıqdır, hərbi vəziyyətə yol verilə bilməz, insanları həbs etmək olmaz və dairəni idarə edən indiki komissarları Zaqafqaziya komissarlığı təsdiq etməyib. Ona görə də onların tədbir və sərəncamlarının heç bir əhəmiyyəti yoxdur". Əlbəttə ki, belə bir təşviqatdan sonra ucdantutma savadsız əhali, xüsusən də cahil ünsürlər, hakimiyyətin hüquqlarını qulaqardına vurmağa başladılar, fəal surətdə oğurluğa və dinc əhalinin sıxışdırılmasına girişdilər; ona görə də mahalda anarxiya gücləndi ki, bu da bəzi millətlərin arasında kəskinləşməyə gətirib çıxardı» [**15**, 4]. Qəbulov «bəzi millətlər» dedikdə ilk növbədə ermənilәri nəzərdə tuturdu. Məsələ onda idi ki, 1918-ci ilin əvvəllərində Qarabağda və İrəvan quberniyasında erməni vəhşəti haqqında xəbərlər istər Nuxa qəzası, istərsə də Zaqatala dairəsi əhalisinin əks-reaksiyasını doğurmuşdu. Etnik eksseslər nəticəsində ermənilər bölgəni tərk edirdilər. Erməni əhali Səbətli kəndindən də çıxarılmışdı. 1918-ci ilin fevralında Sığnaq qəzasında peyda olmuş 1000 nəfərlik erməni qoşun hissəsi Səbətlidəki soydaşlarına yardım bəhanəsi ilə Zaqatala dairəsi ərazisindən keçməklə Nuxa (Şəki) qəzasına soxulmaq niyyətində idi. Erməni hissəsinin bu yeni, indi də Şəkidə soyqırım gerçəkləşdirmək planı Çavçavadzenin sözlərinə görə, məhz Zaqatala mahalı əhalisinin səbatlı, mətin mövqeyi sayəsində baş tutmadı [**14**, 4].

İkincisi, 1917-1918-ci illərdə dairənin müsəlman camaatı ilə xristianlaşdırılmış sakinləri, habelə Sığnağın gürcü əhalisi arasında çəkişmələr mövcud idi. Qeyd etmək istərdik ki, hələ 1917-ci ildə, fevral inqilabından sonra Zaqatalanın nüfuzlu din xadimlərindən olan Hafiz Əfəndi (1920 və 1930-cu illərdə Zaqatalada antisovet üsyanlarının başçısı) vaxtı ilə çarizmin xristianlaşdırdığı bəzi məntəqələrdə, ələlxüsus da Qorağan kəndində sakinləri yenidən islam dininə döndərmək məqsədilə fəal təşviqat aparırdı. Bu da bölgədə konfessional zəmində gərginlik doğurmuşdu. Yalnız Xüsusi Zaqafqaziya Komitəsinin mahala 1917-ci ilin martın sonunda İ.Qəbulovun başçılığı altında komissiya göndərməsi və bu komissiyanın əhalini sakitləşdirməsi münaqişənin eskalasiyasının qarşısı nisbətən aldı [**6**, 7, 9, 10-11].

1918-ci ilin yanvarın sonu-fevralın əvvəllərində Cənubi Qafqaz hökumətinin göstərişi ilə təşkil olunan müsəlman (Azərbaycan) korpusunun tərkibində Zaqatala dairəsi əhalisindən şahzadə Qacarın başçılığı altında ləzgi süvari alayının yaradılmasına başlanılmışdı. Bu alayın ilk vaxtlar dislokasiya olduğu Sığnaq qəzasında yerli gürcülər müsəlmanların xristianları qırmaq niyyətində olması haqqında şayiələrə uyaraq, alaya düşmən münasibət bəsləyirdilər. Yalnız böyük çətinliklə qanlı toqquşmadan qaçmaq mümkün olmuşdu [**14**, 1-2 (arxa)].

Çavçavadzenin vəziyyəti normallaşdırmaq cəhdləri, qeyd etdiyimiz kimi, müvəffəqiyyətsizliyə düçar oldu. O, Cənubi Qafqaz hökumətində daxili işlər komissarı vəzifəsini icra edən Karsivadze tərəfindən martın 10-da dairənin müvəqqəti komissarı təyin edilsə də, Dibirov və Rəcəbovun tərəfdarlarının təhdidlərinə məruz qalaraq, mahalı tərk etmişdi [**14**, 5 (arxa)-7]. Ondan sonra 1918-ci ilin martın 22-də bu dəfə İslam bəy Qəbulovun başçılığı altında Zaqafqaziya seyminin xüsusi nümayəndə heyəti bölgəyə ezam olundu. Bu heyətin təşəbbüsü ilə martın 25-də dairə icraiyyə və milli komitələrinin və kənd cəmiyyətlərinin üzvlərinin iştirak etdiyi qurultay çağırıldı. Qəbulov və digər nümayəndə heyəti üzvlərinin təklifi ilə Tala kəndindən olan ziyalı Musa bəy Şabanbəyov qurultay tərəfindən dairə komissarı, Rəcəbov və Dibirov isə onun müavinləri seçildilər. Qəbulovun sözlərinə görə, «bu seçkilərdən sonra… ayrı-ayrı cəmiyyətlər arasında yaranmış bütün anlaşılmazlıqlar və çəkişmələr aradan qalxdı və nisbi asayiş yarandı» [**15**, 3 (arxa)].

Fəqət bu asayiş də nisbi idi; dairədə siyasi nizamsızlıqlar, konfessional ixtilaflar davam edirdi. A.Qardaşovun mayın 18-də Zaqafqaziya seyminin şəhərkənarı komissiyasına təqdim etdiyi məruzədə bu vəziyyət mahalın ruhani zümrəsinin hərəkətləri ilə izah olunurdu: «İnqilabın ən başından ruhanilər Zaqatala dairəsini ələ keçirməyə çalışırdı. Ziyalıların kiçik qrupu, əhalinin daha şüurlu təbəqəsinə arxalanaraq, ruhanilərin mahiyyətcə mürtəce olduğunu və əhalini məhvə doğru aparacağını bilərək, onunla mübarizə aparırdı. Fəqət silahlı gücə istinad edən ruhanilər Car əhalisini birləşdirməyi və istəyinə güc ilə nail olmabı bacardı» [**14**, 60].

Qaynaqlarla tanışlıq söyləməyə imkan verir ki, Azərbaycanın öz müstəqilliyini elan etməsi ərəfəsində dairədə siyasi cəhətdən iki rəqib düşərgə mövcud idi: mahalın ənənəvi müsəlman ruhani liderləri – mollalar (Molla Müslüm əfəndi, Molla Məhəmməd, Hafiz əfəndi bu zümrənin başında dururdu) və onlara müxalif olan dünyəvi təhsil almış ziyalılar. Bu düşərgələrdən hansının siyasi xəttinin üstünlük kəsb etməsindən böyük ölçüdə mahalda hakimiyyət formasının perspektivləri asılı idi. Klerikallar dağılmaqda olan Rusiya imperiyası strukturlarının əvəzində şəriətə əsaslanan, qismən əski camaatlıq, qismən də Şeyx Şamil imamətinin idarəçilik üsulunu xatırladan hakimiyyyət formasının təşkili lehinə təşviqat aparırdılar. Məhz «mollalar» kimi işarələnmiş bu zümrə daxildə xristianlara dözümsüz münasibət təlqin edir, xarici sferada isə bütün müsəlman (sünnü) dünyasının xəlifəsi elan edilmiş Osmanlı padşahının (1918-ci ilin mayında Balakəndə keçirilmiş mitinqlərdə, Zaqafqaziya seyminin təmsilçisi Darbinyann şahidliyinə görə, əhalinin mühüm qismi fəal şəkildə özünün Türkiyə oriyentasiyasını nümayiş etdirirdi) [**14**, 34], yaxud da Dağıstanda dini-siyasi rejimini yaratmağa çalışan imam N.Qotsinskinin hakimiyyəti altına keçməyi arzulayırdılar. Onlara zidd olaraq yeni siyasi elita statusuna can atan, dünyəvi təhsil almış ziyalılar (A.Qardaşov, İ.Qəbulov, M.Şabanbəyov, B.N.Kiçikxanov və b.), aralarında siyasi fikir ayrılıqlarına baxmayaraq, sekulyar üsul-idarənin tərəfdarı idilər. Maarifçilik ideyaları və idealları zəminində formalaşmış bu azsaylı ziyalı təbəqəsinin dünyagörüşünə teokratik idarəçilik fikri tamamilə yad və qeyri-məqbul idi. Yeri gəlmişkən, sekulyar baxışlar, respublikaçı mövqe ümumən Azərbaycanın birinci respublikasının qurucuları (onların arasında adlarını çəkdiyimiz zaqatalalı ictimai xadimlər də önəmli mövqe tuturdular) üçün səciyyəvi xüsusiyyət idi. Məhz ona görə də klerikal zümrəyə münasibətdə ədavət ruhu Qardaşovun bütün diskursuna sirayət etmişdi: onun nitqində mollalar anarxiyanın və irticanın mücəssiməsi, Zaqafqaziya hökumətinin simasında dünyəvi (sekulyar-klerikal dixotomiyasında) və novator (sosial-siyasi temporallıq ölçülməsində) hakimiyyətin düşməni kimi qarşıya çıxırlar.

1918-ci ildə Azərbaycan və Gürcüstanın dövləti təşəkkülü gedişində Zaqatala dairəsinin siyasi mənsubluğu problemi ikitərəfli münasibətlərdə yaşanan gərgin məsələlərdən biri idi. Yeri gəlmişkən, bu bölgəyə həm Gürcüstan («tarixi» konsepsiyaya istinad edərək), həm də Azərbaycanla Dağlı respublikaları iddia edirdi; sonuncu iki dövlət qurumu etno-konfessional amili qabardırdı.

Belə bir şəraitdə əlbəttə ki, yerli əhalinin siyasi qərarı olduqca əhəmiyyətli idi. Yeri gəlmişkən, Azərbaycan Milli Şurası özünün 1918-ci ilin iyunun 1-də olmuş iclasında Zaqatala dairəsinin Azərbaycan, yaxud Dağlı respublikasına daxil olması məsələsini yerli əhalinin seçiminə buraxmışdı [**16**, 132].

Zaqatala dairəsinin Müsəlman Milli Şurasının (ona Zaqatala imamı Nurulla Qazıyev sədrlik edirdi) 1918-ci ilin iyunun 26-da baş tutmuş iclası tarixə olduqca əlamətdar hadisə kimi düşdü: bölgə əhalisinin etnosiyasi identikliyi haqqında məsələ öz həllini məhz həmin iclasda tapdı – mahalın siyasi, sosial və intellektual fəallarının mövqeyini ifadə edən şura Azərbaycana birləşmək haqqında qərar qəbul etdi. Bu qərar fevral inqilabından sonra dairədə cərəyan edən sosial-siyasi proseslərin məntiqi yekunu idi, beləki inqilabın artıq ilk günlərindən bölgə ictimaiyyəti Azərbaycan milli hərəkatı ilə münasibətlər quraraq, öz fəaliyyətini bir qayda olaraq bu hərəkatla uzlaşdırırdı.

Zaqatala Milli Şurasının sözügedən iclasında qəbul edilmiş qərar bizim tərəfmizdən xüsusi məqalədə kifayət qədər təhlil olunduğundan [**17**], onun üzərində geniş dayanmağa lüzum görmürük. Sadəcə qeyd etmək istərdik ki, dairənin siyasi xadimlərinin seçimi etnosiyasi identikliyin təsbiti aktı olaraq, siyasi və sosiomədəni amillərlə şərtlənmişdi. Siyasi amil onda özünü göstərirdi ki, məhz Azərbaycana birləşməyi mahalın Milli Şurası bölgənin məqsəd və maraqlarına daha müvafiq olması qənaətinə gəlmişdi.

Sosiomədəni faktor da az əhəmiyyətə malik deyildi. Məlum olduğu üzrə, bu region tarixən Azərbaycanın siyasi və mədəni məkanına daxil idi. Bu hal avarlarda, ingiloylarda, saxurlar arasında bikultural (ikili mədəni) və bietnik (qoşaetnik) identiklik və səriştəlilik formalaşmışdı ki, bu ilk növbədə Azərbaycan türkcəsinin və adət-ənənələrinin mahalda geniş yayılmasında özünü büruzə verirdi.

Yeri gəlmişkən, qeyd etmək istərdik ki, müqayisədən kənarda, kommunikasiya xaricində identikləşmə mümkün deyildir. Yəni identiklik biriləri ilə birləşmənin (bizim halda dairə əhalisinin Azərbaycanın sosial-siyasi mühiti ilə) və digərlərindən (bizim halda Gürcüstanla) məsafə saxlamanın simvolik vasitəsi kimi çıxış edir [**10**, 49].

Belə bir məqam da vurğulanmalıdır ki, Azərbaycana birləşmək qərarı bəlli siyasi konsensusun məhsulu idi. Yuxarıda bəhs etdiyimiz həm klerikal, həm də dünyəviçilər düşərgəsinə mənsub xadimlər diskussiya açmadan yekdilliklə qərara səs vermişdilər. İstisna deyildi ki, dairə ictimaiyyətinin mühafizəkar kəsimi konstruksiya olunan Azərbaycan dövlətçiliyini Osmanlı xilafətinin Qafqazdakı təmsilçisi kimi qəbul edirdi; bu halda təşəkkül mərhələsini yaşayan gənc cümhuriyyət dairəni öz tərkibinə almağa legitim haqq əldə etmiş olurdu.

## ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, s.1, iş 227
2. Кавказский календарь на 1917 г. Тифлис, 1916, с.178-221
3. Энциклопедический словарь. Издатели Ф.А.Брокгауз и И.А.Ефрон. Том 6 (12). СПБ.: Типография И.А.Ефрона, 1892, 944 с.
4. ARDA, f.30, s.1, iş 4
5. ARDA, f.30, s.1, iş 5
6. Gürcüstan Dövlət Tarix Arxivi (GDTA), f.2080, s.1, iş 151
7. ARDA, f.30, s.1, iş 12
8. GDTA, f.2081, s.1, iş 318
9. GDTA, f.1818, s.1, iş 339
10. Ачкасов В.А. Этническая идентичность в ситуациях общественного выбора // Журнал социологии и социальной антропологии, 1999, т.II, №1, с.45-56
11. Большая Советская Энциклопедия, в 30 томах. Том 30. Москва, Издательство «Советская Энциклопедия», 1978, с.334
12. Тахо-Годи А. Революция и контр-революция в Дагестане. Махачкала, Дагестанский Научно-исследовательский институт, 1927, 336 с.
13. Делез Ж., Гваттари Ф. Что такое философия. Проспекты и концепты. - http://society.polbu.ru/delez_philosophy/ch06_ix.html
14. GDTA, f.1819, s.1, iş 181
15. GDTA, f.2081, s.1, iş 26
16. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları, 1918-ci il. Bakı: Adiloğlu, 2006, 216 s.
17. Shamil Rahmanzadeh. Decree of Zagatala Area National Council dated 26 June 1918 about uniting with Azerbaijan and its political and socio-cultural aspects // Azerbaijan & Azerbaijanis. Vol 102, No 9-12, 2008, p.172-177

**ШАМИЛЬ РАХМАНЗАДЕ**
***Институт Истории Национальной Академии Наук***
***Азербайджана, Отдел «Истории Кавказа»***
**shamil-rahman@mail.ru**

## ЗАКАТАЛЬСКИЙ ОКРУГ В 1917-1918 ГГ.: ПОИСКИ ЭТНОПОЛИТИЧЕСКОЙ ИДЕНТИЧНОСТИ В СИТУАЦИИ ОБЩЕСТВЕННОГО ВЫБОРА

### РЕЗЮМЕ

В статье делается попытка анализировать ситуацию в Закатальском округе в условиях социально-политического кризиса 1917-1918 годов. В рамках поставленной цели рассматривается политическая обстановка в округе, установившаяся после февральской революции 1917 гг. При этом основной акцент делается на трансформации властных отношений: мы заключили, что в условиях сначала кризиса, а потом и вовсе устранения унифицирующей властной структуры управления округа пришло в расстройство. В статье подробно рассматривается политическая ориентация разных сил и деятелей округа в обстановке системного кризиса конца 1917 – начала 1918 гг. Нами сделан вывод, что интеллектуальные деятели в основном согласовывали свои действия с Азербайджанским национальным движением. Их конкурентами выступали клерикалы и другие представители традиционных структур, которые во многом ориентировались на Османскую империю или же на провозглашенный имамат Гоцинского. Однако специфика политических процессов в конечном результате подтолкнула и консервативный сегмент к восприятию идеи Азербайджанской государственности. При этом перспектива этнополитического выбора в пользу грузинской государственности напрочь отвергалась почти всеми силами округа.

**SHAMIL RAHMANZADE**
***Azerbaijan National Academy of Sciences,***
***Institute of History,***
***"The History of Caucasus" Department***
**shamil-rahman@mail.ru**

## ZAQATALA DISTRICT 1917-1918: QUEST FOR ETHNO-POLITICAL IDENTITY UNDER SOCIAL CHOICE SITUATION

### SUMMARY

The article is dedicated to analysis of the situation in the Zaqatala district at the time of social and political crisis 1917-1918. The political situation in the district has been illustrated within the frames of the appointed purpose. In the given article there are examined activities of different political parties and leaders at that time. The conclusion has been made that the local intellectuals mainly coordinated their efforts with the general National movement in Azerbaijan. They were opposed by the clerics and other conservative elements, who mainly oriented to the Ottoman Empire, or the Gotsinsky's Imamat. However, finally the conservative elements adopted the idea of the Azerbaijani statehood. At the same time the perspective of ethno politic choice in favor of the Georgian statehood was rejected by always all the political forces in the district.

***Rəyçilər: t.e.d. İ. Bağırova, t.e.d. Q.Ə. Əliyev***
***AMEA-nın A. Bakıxanov adına Tarix İnstitutu «Qafqaz tarixi» şöbəsinin 14 sentyabr 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01)***